*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № *32,* 2022
НАУЧНЫЕ ТРУДЫ Азербайджанского Государственного Университета Культуры и Искусств № 32, 2022
SCIENTIFIC PAPERS *of Azerbaijan State University of Culture and Arts* № 32, 2022

## MUSİQİ SƏNƏTİ

**UOT 780.6**

**Toğrul Mirnazim oğlu Əsədullayev**
**Azərbaycan Milli Konservatoriyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**Əməkdar artist, dosent**
**E-mail: mirtoto@mail.ru**

# KAMANÇA VƏ ONUN SİMLƏRİ TARİXİ İNKİŞAF PROSESİNDƏ

**Xülasə:** Təqdim olunan məqalədə kamança alətinin növləri araşdırılmış onun inkişaf dövrlərinə nəzər yetirilmişdir. Belə ki ilk dövrdə 3 simdən ibarət olan kamança öz inkişafını 4 simli kamança vermişdir. Dördsimli kamança Azərbaycan musiqi mədəniyyətində əsas istifadə olunan növdür. Lakin inkişaf nəticəsində beş və altı simli kamançalar da yaranmışdır. Bu alətlərdə səs diapazonunun daha bəm səslərini ifa etmək imkanı olduğu üçün çox bəzi ifaçılar ondan istifadə edirlər.

**Açar sözlər:** kamança, alət, sim, növ, ifaçılıq

Kamança aləti tarixi inkişaf prosesində uzun inkişaf yolu keçmiş əsas milli alətlərimizdən biridir.

Uzun illər Azərbaycan ərazisində müxtəlif dövrlərdə kamança müxtəlif adlarda – bəm kamança, çağanaq, bəm çağanaq, çağanə, neykamança (neykaman), yaylı (kamanlı) rübab, yektay, şeşkaman, yaylı qopuz, qıl qopuz, vızqan, mizqon, mizqan, miskan, əsa kamança, çeşd, qabaq kəmanə, yaylı tənbur, iklik, əhsən vəlləz, qicək, pandur və s. adlarla telli-yaylı alətlərdən istifadə olunmuşdur. Qeyd edək ki, bu alətlərin bir çoxu digərinin təkrarlanmış variantıdır. Buna bariz nümunə vızqan, mizqon, mizqan, miskan müxtəlif cür adlansalar da eyni alət olub məhəlli deyimlərlə bəzi bölgələrdə kamançaya verilən adlar ola bilər.

Kamançanın etimologiyasının kamanla əlaqədar yaranması ehtimalı həqiqətə daha yaxındır. Kaman fars sözü olub, dilimizdə kifayət qədər anlaşılan deyimdir və yay (oxun qoyub atıldığı hissə) deməkdir. Kamança hibrid söz olub, iki xalqın dilindən yaranmışdır. Yəni kamança farsın "kaman" və türkün "çal" sözlərinin birləşməsindən əmələ gəlib (şək.№1). "Görünür alət yarandığı ilk dövrlər "kamançal" adlandırılmış və sondakı "l" samiti sözə ağırlıq gətirdiyindən dilimizdə "kamança" kimi tələffüz olunmuşdur [1, s.101].



Şəkil № 1. Kamança

Sənətşünaslıq doktoru, professor Səadət Abdullayeva kamança alətinin bölgələrdə bəzən fərqli şəkildə adlandırıldığını bildirir: "Azərbaycanın bəzi rayonlarında kamançaya vızqan (Şuşa, Şərur), mizqan (Cəbrayıl, Şəki), mizqon (Tovuz), miskan (Quba) deyirlər" [2, s.161].

Sənətşünaslıq doktoru, professor Məcnun Kərimi də "Azərbaycan musiqi alətləri" adlı monoqrafiyasında kamança ilə bağlı aşağıdakıları yazır: "Türk xalqları arasında kamançanın çoxsaylı növ və tipləri vardır. "Yaylı qopuz" (Azərbaycan), "yançak komus" (Mərkəzi Asiya), "iyık" (Altaylar), "kil kıyak" , "qıl qopuz" (Qırğızıstan), "gicak" (Türkmənistan) və s. kamançanın prototipləri sayılır. Azərbaycan kamançası özbəklər, türkmənlər, uyğurlar arasında geniş yayılmış "gijek" adlı qədim alət eyni kökdəndir" [3, s.64].

Bəzi hallarda kamançanın müəyyən əlamət və xüsusiyyətlərini aydın şəkildə açmaq, izahını vermək məqsədi ilə onun adına əlavə sözlər də qoşulur. Məsələn: saya kamança, sədəf kamança, təcrübi kamança, eksperimental kamança, elektro-kamança, əsa kamança, bəm kamança, beş simli kamança və s.

Lakin biz onu da unutmalıyıq ki, "kaman" sözü ilə "kamança" sözü eyni mənanı kəsb etmir. Bəzən dilimizdə kamança ifaçısına "kaman ifaçısı" kimi deyim də mövcuddur. Bu cür deyim əsla düz deyil. Çünki kaman tamamilə fərqli müstəqil alətdir.

Əfrasiyab Bədəlbəyli öz "İzahlı monoqrafik musiqi lüğəti"ndə kamanı Azərbaycan zərbli musiqi aləti kimi göstərir. Onun təsvirini isə aşağıdakı kimi təqdim edir: "..... kaman şəklində düzəldilmiş bu musiqi alətinin yayına kiçik həcmli bir çox müxtəlif zınqırovlar, çax-çax, şax-şax, halqalar və xırda zənglər taxılır" [4, s.83].

Onu da qeyd edək ki, kaman alətindən əsasən yallı rəqsinin icrası zamanı yallıbaşı tərəfindən ifa olunurdu. Belə ki, kaman aləti sağ əldə tutularaq rəqsin ritminə uyğun şəkildə vurularaq rəqs olunurdu. Adını söylədiyimiz alət haqqında sənətşünaslıq doktoru, professor Abbasqulu Nəcəfzadə də aşağıdakıları qeyd edir: "Kaman ağacdan aypara şəklində hazırlanır. Uclarına qədimdə dəridən, göndən hazırlanmış, tarım çəkilmiş kəndir bağlayırdılar. Belə alətlərdən qədimdə (Mezolit dövründə) ov və döyüş zamanı istifadə olunardı, kamanın kəndirinə ox qoyub atardılar" [1, s.99].

Kamançanın adlarının özünəməxsusluğu ilə yanaşı onun simlərinin də Azərbaycan musiqi mədəniyyətində çoxlu fərqli məqamları mövcuddur.

Məlumdur ki, kamançanın üç simli, dörd simli, beş simli və altı simli növləri mövcuddur. Buna Azərbaycan tarixi Muzeyinin Etnoqrafiya Fondunda XIX əsrə aid olan beş simli kamança növünü və Zülfüqar Hacıbəyovun çanaq və qol hissələrinin sədəflə bəzədilmiş üç simli kamança növü qorunub saxlanılması misal ola bilər.

Kamançanın simlərinin sayı ilə də bağlı ziddiyyətli fikirlər mövcuddur. Bəzi mütəxəssislər, xüsusən sənətşünaslıq üzrə fəlsəfə doktoru Əvəz Rəhmətov XX əsrə qədər kamançanın "üç telli" olduğunu bildirir [5, s.7].

Bununla bağlı sənətşünaslıq doktoru, professor Abbasqulu Nəcəfzadə qeyd edir: "Bəzi müəlliflər yanlış olaraq kamançaya dördüncü teli ilk dəfə guya, XX əsrin əvvəllərində Saşa Oqanezaşvilinin əlavə etdiyini yazırlar. 1683-1684-cü illərdə Azərbaycanda olan alman səyyahı Engelbert Kempfer (1651-1716) yol qeydlərində bu ərazidə "dörd", hətta, "beş telli" kamanlı alətlərə rast gəldiyini qeyd edir" [6, s.740-745].

Deməli, hələ XVII əsrin sonlarında Azərbaycanda "beştelli" kamanlı alətdən istifadə edilib. Sonralar "dördtelli" kamançalara üstünlük verilib. Ötən əsrin sonlarında (1981-ci ildə) Quba uşaq musiqi məktəbinin müəllimi işləmiş, qocaman sənətkar Nadir Cəfərov [7], tanınmış muğam bilicisi Abdulla Abdullayev beş simli kamança hazırlamışdılar [8, s.39] (şək.№2).



Şəkil №2 Beştelli kamança (A.Abdullayevin əl işi )

Qobu kənd uşaq musiqi məktəbinin direktoru işləmiş, müxtəlif çalğı alətləri icad etmiş Qasım Qasımov da bir sıra fərqli "beştelli" kamançalar hazırlayıbdır. Onu da qeyd edək ki, Q.Qasımovun ərsəyə gətirdiyi "beştelli" kamança hal-hazırda da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunur.

Azərbaycan Tarix Muzeyinin Etnoqrafiya Fondunda isə həmçinin görkəmli bəstəkar Zülfüqar Hacıbəyliyə məxsus çanaq və qol hissələri sədəflə bəzədilmiş üç simli kamança da saxlanılır.

Həqiqətən də müşahidələr göstərir ki, hələ XVII əsrdə "dörd" və "beş simli" kamançalardan Azərbaycan ərazisində istifadə olunmuşdur. Burada bir məsələ var. XX əsrə qədər "dörd" və "beş simli" kamançalardan istifadə olunması kütləvi hal almamışdı. Amma XX əsrin əvvəllərindən etibarən artıq hər bir kamança ifaçısı "dörd simli" kamançalardan istifadə etmişdir. Qeyd olunduğu kimi, müasir dövrdə də "beş", hətta "altı simli" kamançalar da hazırlanılır. "Şeşkaman" adlı "altı" telli, yaylı aləti Qasım Qasımlı və eləcə də Azərbaycan Milli Konservatoriyasının müəllimi və dissertantı Mahmud Səlah müxtəlif illərdə ortaya çıxarmışlar (şəkil №3).



Şəkil №3 Şeşkaman

Lakin hazırlanılan bu "şeşkaman"lar bir-birindən fərqlənirlər. Hələlik kamança üzərində aparılan bu islahatlar, reformalar özünü doğrultmur, o səbəbdən də kütləvi hal almır. Ola bilər ki, kimsə alətə "beş" və yaxud "altı" simi uğurla tətbiq etsin. Belə olduqda həmin iş bütün kamançaçalanlar tərəfindən qəbul edilər və bu alətdən kütləvi halda istifadə oluna bilər.

Görkəmli şair Mikayıl Müşfiqin (1908-1938) dayısı oğlu, tanınmış dövlət və ictimai xadim, folklor tədqiqatçısı Əlihüseyn Dağlı (1898-1981) "Ozan Qaravəli" adlı əsərində kamanlı alətlərin ifaçıları üçün maraqlı olan məlumat verir: "Bir müddət Dmitri Pavloviç Qrek familiyasında həkimlə həmsöhbət olmuşam. O, əsl insan idi, söhbətləri mənə çox yaxşı təsir bağışlayırdı. Həkim öz ixtisası barədə nəql etdi ki, ruhi xəstəliklərlə əlaqədar beyin quruluşuna dərin diqqət yetirməli olubdur. Mülahizələri zamanı bu qərara gəlmişdir ki, ən nazik, incə damar skripkaçıların beynində yerləşir. Bu yəqin ona görədir ki, skripkanın (o cümlədən ud və kamançanın – Ə.D.) gitara, mandolina və s. alətlərdə olduğu kimi, qollarına xüsusi pərdələr bağlanmır. Odur ki, musiqiçi ifa zamanı həmişə gərgin vəziyyətdə olur, barmaqlarının həssaslığı ilə musiqi alətinin qolunda səslərin yerini dəqiq tapır. Əgər o, əsəbi ovqatdadırsa və ya fikri, diqqəti dağınıqdırsa, çalğısında mütləq "xaric", arzu olunmayan səslər meydana çıxa bilər. Əgər Qrek familiyalı mütəxəssis həkimin qərarında bir neçə faiz həqiqət varsa, onda bu elmi nəticə kamança və ud çalanlara da şamil edilməlidir" [9, s.43-44].

Həqiqətən, Əlihüseyn Dağlı burada çox incə mətləblərə toxunur. Qolunda pərdə olmayan simli alətlərdə barmağını müvafiq səsi ifa edərkən hətta 1 mm aşağı və yaxud yuxarı qoysan "xaric" səslənmə alınacaqdır. Bunun da nə demək

olduğunu hər bir ifaçı gözəl bilir. Belə məqamlarla rastlaşmamaq üçün kamança ifaçısı hər an diqqətli olmalıdır.

Gördüyümüz kimi, kamança alətinin inkişaf dövrlərində onun simlərinin əlavə edilməsi onun ifa üsullarına təsir göstərmiş, bir sıra yeni səslənmələrə gətirib çıxarmışdır. Lakin bununla yanaşı hesab edirəm ki, kamança alətinə əlavə edilən simlər alətin daha çox diapazonunun genişlənməsinə və daha aşağı səslərin ifa olunmasınaköməklik göstərir. Bu isə əlbəttə ki, alətin istifadə imkanlarını, onun ifaetmə arealını daha da genişləndirir.

## Ədəbiyyat siyahısı:


1. Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı: El-ALİances, s.224.
2. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). Bakı: Adiloğlu, 2002, 454 s.
3. Kərimov M.T. Azərbaycan musiqi alətləri. Bakı: Mütərcim, 2011, 95 s.
4. Bədəlbəyli Əfrasiyab İzahlı monoqrafik musiqi lüğəti. Bakı: Şərq-Qərb, 2017, s. 470.
5. Rəhmətov Ə.M. Azərbaycan xalq çalğı alətləri. Bakı: İşıq, 1975, 64 s.
6. Kaempfer E. Amoenitatum exoticarum politico-physico-medicarum (latıncadan tərcüməsi: Dövlət proqramının tibbi köməyi). Fasciculus V. Lemgoviae, Typis & impensis H.W/ Meyeri, 1712. 912 p.
7. Namazəliyev Q. Beşsimli kamança. // “Ədəbiyyat və incəsənət” qəz. Bakı: 1981, 31 iyul.
8. Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. II nəşr. Bakı: Min bir mahnı MMC, 2004, 224 s.
9. Əlihüseyn Dağlı. Ozan Qaravəli (I kitab). Bakı: MBM, 2006, 192 s.


**Тогрул Мирназим оглы Асадуллаев**

## КАМАНЧА И ЕЕ СТРУНЫ В ПРОЦЕССЕ ИСТОРИЧЕСКОГО РАЗВИТИЯ

**Резюме:** В представленной статье были исследованы виды инструмента каманча и рассмотрены периоды его развития. Так, в первый период каманча, состоявшая из 3-х струн, дала свое развитие четырехструнной каманчи. Четырехструнная каманча является основным видом, используемым в азербайджанской музыкальной культуре. Однако, в результате развития были созданы и пяти-, и шестиструнные каманчи.

Некоторые исполнители используют эти инструменты, поскольку они воспроизводят более низкие звуки.

**Ключевые слова:** каманча, инструмент, струна, вид, исполнение

**Toghrul Mirnazim oghlu Asadullayev**

**KAMANCHA AND ITS STRINGS IN THE PROCESS OF HISTORICAL DEVELOPMENT**

**Summary:** In the presented article, the types of the kamancha instrument were studied and the periods of its development were considered. So, in the first period, the kamancha, which consisted of 3 strings, gave its development to the four-stringed kamancha. The four-stringed kamancha is the main type used in Azerbaijani musical culture. However, as a result of development, both five- and six-stringed kamanchas were created. Many players use them because these instruments can reproduce lower range sounds.

**Key words:** kamancha, instrument, string, type, performance

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.10.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-Zadə**